Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Bəşərin böyük arifi – İmadəddin Nəsimi

**İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Bəşərin böyük arifi – İmadəddin Nəsimi:** İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

**Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə

əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir.

Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik

yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 noyabr 2018-ci il .

## İnsanpərvərlik və azadlıq nəğməkarı Nəsimi

Adı dünyanın ölməz sənətkarları sırasında şərəfli yer tutan, poeziyamızda yeni, çox əlamətdar bir dövrün başlanğıcı olan, Azərbaycan dilini ədəbi-bədii dil səviyəsinə yüksəldən qüdrətli sənətkar İmadəddin Nəsimi zəngin irs qoymuşdur. Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi (1369-cu il, Şamaxı-1417-ci il, Hələb)-azərbaycanlı şairi, mütəfəkkiridir. Nəsimi klassik Azərbaycanın ustad şairidir. O, doğma dilimizdə sanballı əsərlər yaradan ilk sənətkarlardandır. “İmadəddin Nəsimi” adı ilə məşhurdur. Orta əsrlərdə Şamaxıda zəmanəsinə görə qüvvətli təhsil verən mədrəsələr var idi. Nəsimi bu mədrəsələrdə mükəmməl təhsil almış, ana dilindən başqa, ərəb və fars dillərini, riyaziyyat astronomiya, təbiət, fəlsəfə, məntiq elmlərini öyrənmişdir. Nəsimi gözüaçıq bir ailədə yetişmiş, peşəkarların, xırda sənətkarların mühitində təlim-tərbiyə almışdır. Şəhər zəhmətkeşləri mühitinə yaxın olması şairin tərbiyəsində, onun dünya görüşünün formalaşmasında çox əhəmiyyətli olmuşdur. Doğrudur, Nəsimi islam dininin hökmran olduğu bir dövrdə yaşayıb-yaratmışdır, ancaq şəhər zəhmətkeşləri içərisində böyüməsi onu xalq həyatına, zəhmətkeş insanların mühitinə yaxınlaşdırmışdır. İlkin şeirlərini məşhur sufi Hüseyin Həllac Mənsurun şərəfinə, şairin öz müəllliminə ehtiram və yaxınlıq əlaməti olaraq “Nəsimi” və “Hüseyni” təxəllüsü ilə yazan Nəsimi XIV əsrin sonlarından Azərbaycanda geniş yayılan “Hürufi” sufi təriqətinə qoşulmuş və təriqətin qurucusu təbrizli Fəzullah Nəiminin şərəfinə özünə “Nəsimi” təxəllüsünü götürmüşdür. Nəsimi qısa zamanda hürufiliyin nəinki Azərbaycanda, həmçinin Misir, İraq, İran və Anadoluda ən tanımmış simalarından birinə çevrilmiş, şeirləri dildən-dilə düşmüşdür. Hürufiliyin siyasi təhlükəsindən qorxan

Teymuri hakimiyyəti 1394-cü ildə F. Nəimini edam edir. Müəlliminin edamından dərin sarsıntı keçirən Nəsimi onun vəziyyətinə əsasən təriqəti yaymaq üçün Təbrizə, oradan da Anadoluya gedir. Əngin batini fikirləri təbliğ etməsi Nəsimini daim təqiblərə məruz qoyur. Bunun nəticəsi olaraq o, 1417-ci ildə həbs edilir və Suriyanın Hələb şəhərində edam olunur. Şairin məzarı da Hələb şəhərindədir. Şeirlərinin təməl anlamını İslam təsəvvüfünün vəhdəti-vücud ideyası və ilahi eşq təşkil edən Nəsimi fars, ərəb, Azərbaycan türkcəsində mükəmməl şeir nümunələri ortaya qoymuşdur. Onun şeirləri bütün türk xalqları ədəbiyyatına və bütövlükdə klassik şərq poeziyasına ciddi təsir göstərmişdir. Nəsimi ana dilində ilk dəfə müstəzad, mürəbbe, tərcibənd nümunələri yazmış, rübai və tuyuğlarında sadə xalq dilindən istifadə etmişdir. Onun şeirlərində istifadə etdiyi dərin təsəvvüfi düşüncəsi sonralar bir çox böyük mütəfəkkirə təsir göstərmişdir. Klassik şairimizin odlu poetik nəfəsindən hərarət saxlayan qaynaqlardan biri də XVI əsrdə Aşıq Çələbi tərəfindən tərtiblənmiş "Məşairüş–şüara" adı ilə tanınan təzkirədir. Nəsiminin olduqca enerjili, üsyankar (və mükəmməl) poetik "Mən"i vardır, və nəinki Azərbaycan, ümumən türk xalqları (bəlkə də dünya!) poeziyasında bu qədər parlaq, həcmli, dərin (ilahi!) məzmunlu ikinci bir şair "mən"i olduğunu təsəvvür etmək çox çətindir. Ömrünün sonuna qədər heç bir tərəddüd etmədən "Ən əl-həq" deyənlərin yolu ilə getmiş (və bu yolda edam olunmuş, dərisi soyulmuş) dahi şair-mütəfəkkirin, sufizm-hurifizm təbliğatçısının "mən"i haqqında ən papulyar, kütləvi məlumat, ilk növbədə onun məşhur şeirlərində ifadə olunur.

Nəsimi VIII əsri-hicrinin son yarısında doğma yurdu Azərbaycanda sakin idi. O zaman bu yerdə hökmranlar Əmir

Teymur, Şahrux mirzə və Miranşah idi. Nəsimi Miran şahın zamanında vətənini tərk etməyə məcbur oldu. Buna da Şah Fəzlullahın Miranşahın əmri ilə öldürülməsi səbəb oldu. Cahil üləmanın fitvaları ilə Miranşah Şah Fəzlullahı Şirvandan götürdərək öldürtdü. Nəsimi isə ya ələ keçməmək və yaxud təbliğat aparmaq üçün səyahətə çıxdı. Əsnayi-səyahətində bir çox yerə, əz cümlə Türkiyəyə və Hələb məmləkətinə uğradı. Hələb məmləkəti o zaman müluki-çərakisə əlində idi. Hər bir zaman məsləkinə rəvac vermək üçün şeirləri ilə təbliğat və təşviqat aparan Nəsimi yad ölkələrdə heç bir şeyi nəzərə almayaraq yoluna davam edirdi, avam xalqın etiqadına müxalif və idrakına sığmayan şeir söyləyirdi.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam.

Ərş ilə fərşü kafü nun, məndə bulundu cümlə çün,
Kəs sözünü və əbsəm ol, şəhrü bəyanə sığmazam.

Kitabxanada şairin həyat və yaradıcılığını oxuculara tanıdan məqsədyönlü tədbirlərdən biri sərgilərdir. Sərgilərin təşkili zamanı şairin həyat və yaradıcılığı, əsərləri, ümumilikdə onun duyğulu ömür yolu oxuculara çatdırılır. Sərgiyə “Qəlblərdə yaşayan şair”, “Həq mənəm”, “Ağla və qəlbə işıq saçan şair”, “Bir qızılı payız günü əbədi poeziya baharı kimi doğulmuş İmadəddin Nəsimi”, “İnsanpərvərlik və azadlıq nəğməkarı”, “Bəşərin böyük arifi – İmadəddin Nəsimi”, “Ölümü ilə ölməzlik qazanan şair – Nəsimi”, “Könüllər fatehi – Nəsimi”, “Əbədi şəxsiyyət – Nəsimi”, “Haqq şairi – Nəsimi”, “Günəşə bənzəyən şair”, “Məndə sığar iki cahan”, “Əbədiyyət üfüqlərində doğmuş eşq şairi – Nəsimi”, “Altı əsrlik mərdlik simvolu – Nəsimi”, “Humanist şair – Nəsimi”, “Bəşər şairi”,

“Nəsimini yetirən ədəbi dil zəmini”, “Azərbaycan şeirinin ilkin dahisi”, “Həq mənəm, həq məndədir, həq söylərəm”, “Məşələ çevrilmiş nəğməkar”, “Elmdə, ürfanda ümman olan şair”  və s. başlıqları verilir. Sərgidə şairin görkəmli rəssamlarımız tərəfindən fırçaya alınmış əsərləri öz yerini alır. Bundan başqa şairin müxtəlif adda olan kitabları, seçilmiş əsərləri, dövri mətbuatda çap olunan müxtəlif materiallar və görkəmli şəxsiyyətlərin İmadəddin Nəsimi haqqında söylədikləri sitatlar, şeir parçaları verilir.























## Görkəmli şəxslər İmadəddin Nəsimi haqqında

Elm Darvinin şəxsində insanın meymun mənşəyini, ədəbiyyat (poeziya) isə Nəsiminin şəxsində ilahi mənşəyini kəşf etdi...

**Yaşar Qarayev,**
*professor*

Nəsimi dövrünün çox savadlı və dərin məlumatlı adamı olmuşdur. Onun dünya görüşü şeirlərində gizli və açıq şəkildə öz əksini tapmışdır. Şair zəngin ədəbi və fəlsəfi irs qoyub getmişdir.

**L. Hüseynzadə,**
*filologiya elmlər namizədi*

Nəsimi dərin məntiqi və fəlsəfi baxışları, mübariz poeziyası ilə bütün oxucu və tədqiqatçıları heyran edir.

**T. Musəvi,**
*tarix elmləri namizədi*

Nəsimi Şərqin ulu şairi, böyük fikir adamı olmuşdur.

**M. Aslan,**
*şair*

Nəsimi yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində yeni dövr açmışdır.

**S.Şıxəliyeva,**
*ədəbiyyatşünas*

Nəsimi öz mərdanə ölümü ilə düşmənlərini belə təəccübləndirmiş, insanların qəlbində əsrlərlə yaşamasına zəmin yaratmışdır.

**Ə. Səfərli,**
*filologiya elmlər namizədi*

Nəsiminin şöhrətindən yalnız hurifilər deyil, başqa şairlər, hətta xəttatlar da istifadə edirdilər.

**C. Qəhrəmanov,**
*filologiya elmlər namizədi*

İmadəddin Nəsiminin həyat və yaradıcılığını məktəblilərə tanıtmaq məqsədilə kitabxanaçı bir sıra məktəblərdə olub, sərgi təşkil edib, şair haqqında "Ağla və qəlbə işıq saçan şair" adlı söhbət keçirə bilər. Söhbətin əvvəlində kitabxanaçı şair haqqında qısa məlumat verir. Sonra isə oxucularla Nəsiminin insana, sözə verdiyi dəyər haqqında müzakirə aparılır.

**Kitabxanaçı:** Böyük şair Nəsimi insana olduqca yüksək dəyər verir, insanı ən ali varlıq hesab edir. Onun fikrincə insan sifətinin Allah qələmi ilə çəkilən gözəlliyini tərifləyir və ənəlhəqq (mənəm Allah) deyən fədakar sufilərin bu məhşur şüarını sözün həqiqi mənasında deyil, məcaz kimi qəbul edir. O, insanı ülviləşdirir. İnsana səcdəyə gəlməyən mələk bu ilk insanın fəzilətlərindən xəbərsizmiş.

Səcdəgah etmişdi eşq əhli qaşın mehribanı,
Qılmadan xeyli məlayik səcdeyi-Adəm hənuz.

Nəsimi poeziyasının leytmotivi insandır; zəkalı, kamil, gözəl insan; öz amalından dönməyən, mübariz, haqq, həqiqət yolunda canından keçməyə hazır olan mərd, doğruçul, sadiq, vəfalı insan! Nəsimi öz şəxsində insanın bəşəri keyfiyyətlərini

açır, onu mənalandırır, poetik səviyyəyə yüksəlir. Şairin fikrincə insan bütöv bir aləmdir, insan kainatdır.

Mən mülki-cəhan, cəhan mənəm, mən,
Mən ərşi –məkan, məkan mənəm, mən.

Lakin insan bundan daha böyükdür, o kainata da sığmır... İnsana, şəxsiyyətə aid bütün bəşəri keyfiyyətlər şairin gözəllik aləminə daxildir, onun təsvir hədəfidir. Haqqın, həqiqətin tərənnümü Nəsiminin şəxsiyyəti ilə poeziyası arasında bir vəhdət, bağlılıq, həmahənglik yaradır. Nəsimi fitrətən haqq, həqiqət aşiqi idi. Buna görə, hər şeydən əvvəl; həqiqət olan insanın sözü də həqiqət olmalıdır: Bu keyfiyyətlər Nəsimidə onun poetik amalı kimi səslənir.

Cümlə həqdir, hər nə kim, mövcud imiş,
Həqqə sacid, həqqə hər məscud imiş.

Əsl böyük həqiqət isə insandır, insanın mövcudluğudur. Haqq, həqiqət özü də ancaq insanla bağlı keyfiyyətdir, insana məxsusdur, bəşəridir. Belə olan surətdə insan həqiqətin keşiyində durmalı, mövcud aləmin sahibi, habelə haqqın, ədalətin başçısı-allahı olmalıdır:

Ey könül, həq səndədir, həq səndədir,
Söylə həqqi kim, ənəl-həq səndədir.

Və ya:

Bulmuşam həqi, ənəl-həq səndədir,
Həq bənəm, həq bəndədir, həq söylərəm.

Böyük şair, filosof İmadəddin Nəsimi dərin, sarsılmaz inam və işıqlı ideal sahibi olub. Sözün böyük mənasında heyrət doğuran cəhət budur ki, Nəsimi öz həqiqətini, öz "ənəlhəq" ini yalnız poeziyasının qüdrəti ilə deyil, şəxsi dönməzliyi, fədakarlığı ilə-əfsanələrə çevrilmiş, mərdanə və amansız ölümü ilə təbliğ və təsdiq etmişdir.

*Kitabxanaçı növbəti müzakirəsində Nəsiminin sözə verdiyi dəyərdən söhbət açır.*

**Kitabxanaçı:** "Doğru söz doğrulara acı deyil", "Qövli yalançı ilə olma müsahib, çək əlin..." Altı yüzillik bir zaman məsafəsini qət edib gələn bu müdrik hökmlər böyük Nəsiminin köhnəlmək, unudulmaq bilməyən həyat qənaətidir. Söz insanın mənəvi dayağı, zövqü, səfasıdır, ləyaqəti, şöhrəti, şanıdır. Əbəs yerə deyil ki, söz, sözün bu qüdrəti bizim Nizami, Füzuli, Xətai, Nəsimi kimi söz ustadlarımızın mövzusu olmuş, onlar söz haqqında ölməz şeirlər demişlər. Nəsiminin "Söz" rədifli şeiri ana dilində yazılmış söz haqqında ilk şeirdir. Şeirdə sözə, söz sənətinə yüksək qiymət verilir; çünki söz, nitq insanın ilk zəruri keyfiyyətidir:

Dinləgil bu sözü ki, candır söz,
Aliyi-asiman məkandır söz.
Şeş cəhətdən münəzzəh anla və baq,
Şeylə kim xaliqi-cahandır söz...

Şairin təsvirincə söz dünyanın bəzəyidir; dünyada söz qədər füsunkar, söz qədər ali, söz qədər cahanşümul bir nemət yoxdur, söz "tərcümandır", söz "könüldə candır", söz "payəkandır", söz "asimandır", söz "sahib zəmandır" və s. Söz insana həyat verir, söz həqiqəti aşkar edir, insanlar arasında ünsiyyət yaradır, onları bir-birinə bağlayır, qovuşdurur. Buna görə insanın danışığından, sözündən, söhbətindən Nəsimi zövq alırdı, insan nəfəsi onu qanadlandırırdı. Nəsimi deyirdi ki, insan olan kəs gərək ağıllı danışsın, onun sözü yığcam, fikri isə geniş olsun.

Aqilsən, sözünü müxtəsər et!
Ey Nəsimi, çü bikərandır söz

**Nəticə:** Sənətkar haqqında daha obyektiv fikri adətən zamanın amansız sınağından sonra söyləyə bilirlər. Bu mənada Nəsiminin cismani məhvi əslində onun mənəvi qələbəsi kimi əsrlərdən bəri neçə-neçə nəslə misilsiz örnək oldu. Sonralar Nəsimi adı poeziyamızda öz əqidəsi yolunda təkcə sözdə deyil, həm də işdə fəda olmaq timsalına çevrildi: "Nəsimi tək bu aşiq, - Yolunda soyulandır" (Sarı Aşıq). Əqidəsi, məsləki, baxışları, inandığı həqiqətlər uğrunda canından keçən, düşmən qarşısında əyilməyən sənətkarlar az olmamışdır. Ancaq bu əqidə qəhrəmanları arasında Nəsimi müstəsna bir yer tutur. Haqsızlığa, ehkamçılığa, nadanlığa, idraksızlığa, zülm və ədalətsizliyə, cəmiyyətdə Allahdan və insanlıqdan uzaq bütün vəziyyətlərə odlu şeirləri ilə üsyan edən Nəsimi Azərbaycan ədəbiyyatında ictimai-fəlsəfi şeirlərin parlaq nümunələrini yaratmışdır.

Bir günəşdir Nəsimi kim anın
Neçələr zərrəsinə həsrətdir.

Şairin yubileyi ilə əlaqədar keçirilən bir sıra tədbirlərdən biri də şagirdlər arasında keçirilən **şeir müsabiqəsi**dir. Bunun üçün kitabxanaçı əvvəldən bir sıra məktəblərdə olur və şagirdlərə sözügedən şair haqqında və onun müxtəlif adda kitablarından, eləcə də müsabiqədən bəhs edir. Şagirdlər bir neçə gün əvvəl şairin müxtəlif şeirlərini öyrənib təyin olunmuş vaxtda kitabxanaya daxil olurlar. Münsiflər və iştirakçılar yerlərini aldıqdan sonra kitabxanaçı ilk olaraq qonaqları salamlayaraq **"Əbədiyyət üfüqlərində doğmuş eşq şairi – Nəsimi"** adlı müsabiqənin qaydalarından danışır. Daha sonra İmadəddin Nəsiminin həyat və yaradıcılığından bəhs edir.

**Kitabxanaçı:** Yüksək idealları və məfkurəsi yolunda mübarizə aparan görkəmli şəxsiyyətlərdən biri, XIV əsrin axırı XV əsrin

birinci yarasında yaşamış Seyid İmadəddin Nəsimidir. Nəsiminin mürtəce şər qüvvələrə qarşı son nəfəsinə qədər fədakarcasına mübarizəsi və bu yolda öz həyatını qurban verməsi böyük bahadırlıq dastanı kimi beş yüz ildən bəridir ki, yaşamaqdadır. Qısa məlumatdan sonra kitabxanaçı bir-bir səhnəyə iştirakçıları çağırır. Birinci iştirakçı səhnəyə yaxınlaşaraq "Mərhəba" şeirini deyir.

Mərhaba, xoş gəldin, ey ruhi- rəvanım, mərhəba!
Ey şəkərləbyarı- şirin, laməkanım, mərhaba!..

*İkinci iştirakçı "Gəl axır" şeirini demək üçün səhnədə öz yerini alır.*

Mənim yari-vəfadarım, gəl axır,
Mələk surətli dildarım, gəl axır. ...

*Üçüncü iştirakçı "sığmazam" şeirini qiraətlə söyləyir.*

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam.

*Daha sonra, dördüncü iştirakçı "İçindədir" şeirini demək üçün səhnədə öz yerini alır.*

Zülfi-dütası şahımın həlqəsi mah içindədir,
Şol qəmərin mənazili əbri-siyah içindədir.

Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırırlar.

Nəsimi yaradıcılığını oxuculara tanıtmaq və sevdirmək məqsədilə kitabxanaçı oxucularla onun əsərlərinin təhlilini keçirə bilər. Kitabxanaçı Nəsiminin "***Bəhrül-əsrar***" qəsidəsinin təhlilinə başlayır. Azərbaycan ədəbiyyatı tarixində İmadəddin Nəsiminin həyat və yaradıcılığından, onun

dünyagörüşündən çox  yazılsa da, farsca qələmə aldığı "Bəhrül əsrar" (şirlər dəryası) fəlsəfi qəsidəsi dərin təhlilə, fəlsəfi baxımdan hərtərəfli tədqiqata cəlb edilməmişdir. Baxmayaraq ki, onun Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitunda saxlanılan əlyazması filologiya elmləri doktoru C.Nağıyeva tərəfindən aşkarlanmışdır. Onun yaradıcılığında fəlsəfi məzmunlu qəsidələr öz ideya və məzmun xüsusiyyətləri ilə seçilir. Bunların içərisində də öz növbəsində "Bəhrül əsrar" qəsidəsi xüsusi maraq doğurur. Məlumdur ki, bu əsər dərin fəlsəfi məzmuna malik olması ilə bərabər, həm də böyük tərbiyəvi əhəmiyyətli nəsihətamiz fikirlərlə zəngindir. Qəsidədə maddənin dəyişməsi, insanın öləndən sonra torpağa dönməsi kimi fikirlər ifadə olunmuşdur:

Ayağını bu torpağa hörmətlə bas, unutma ki,
Şahlar başı torpaq olmuş gəlib-gedən üstə gəzər.

Əsərdə fəlakətlərlə dolu olan bir zəmanədə zülm və əsarət içərisində iztirablı, kədərli həyat keçirən insanların taleyi şairi dərindən düşündürür. Onun mülki bərabərsizlikdən, ictimai zülm və ədalətsizlikdən şikayətləri bu qəsidədə də qüvvətli bədii ifadəsini tapmışdır. Şair dövlət və sərvət yığmaq ehtirasına, acgözlüklə dünyanı soymağa, çapıb-talamağa çalışan tamahkar, qəddar ürəkli hökmdarlara, feodal məmurlarına istehza edir. Dövlətə, sərvətə pərəstiş edənlərin insanları əzmələrini pisləyir.

Simü – zər yığmaq üçün cəhd eyləmə Qarun kimi,
Hər xəzinə torpaq altında qalıbdır min kərə.
Sərvət ilə yüklənərsə kəştisi dövrün əgər
O tufanlı dəryada düşməz məgər şuri-şərə?..
Dünya birşandır, onun həm şəhdi, həm də zəhri var,
Şəhid üçün insan gərəkdir tab gətirsin nəştərə.

Burada dahi Nəsimi dünyanı mənəm-mənəm deyə qırğına verən hökümdarların, o cümlədən Qarun kimi xəzinəsinə toplamağa cəhd edən və nəhayət, xəzinəsi torpaq altında qalan şəxslərin ölümə məhkum olub, özlərinin də torpağa qarışacaqlarını söyləyir, zəmanəsindəki qəsbkar şahları onların aqibətindən ibrət almağa çağırır. Nəsimi bu şeirində də öz humanist ideyalarına sadiq qalaraq insanın şərəf və ləyaqətini üstün tutur, onlara dərin hörmət və qayğı bəsləyir, zəhməti, zəhmətkeş insanları, elmi, mərifəti, ədaləti alqışlayır. Bu fikrin təsdiqi üçün şairin fars divanından bir parçanın professor M. Quluzadənin "Böyük ideallar şairi" monoqrafiyasında Azərbaycan dilində nəzmlə verilən tərcüməsinə nəzər salaq.

İnsan üçün mərifətdən özgə yoxdur bir bəzək,
Bax, sədəf çılpaqdır, ancaq qəlbi bənzər gövhərə.
Aqil insan zər üçün öz ömrünü verməz hədər,
De, siçanlar nədən eşq yetirdin sən zərə?
Sən çörəkçün minnət etmə, hifs elə öz ruzini
Qafil ol kəsdir ki, ruziçin o, batmaz qan-tərə...

Burda yoxsul insanlar, zəhmətkeş adamlar Nəsimi nəzərində böyük məhəbbətə, böyük qiymətə malik olanlardır. Burada şair insanları sadəliyə, fədakarlığa, təvazökarlığa, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olmağa, arif olmağa, mənalı, şüurlu həyat keçirməyə çağırır. Qəsidənin bu keyfiyyətlərinə görədir ki, Nəsimi Şirvanidən sonra böyük taciq şairi Əbdürrəhman Cami də özünün "Lissətül-əsrar" qəsidəsini yazırlar. Doğrudur, şairlər bu haqda ilk söz açan şair Əmir Xosrov Dəhləvinin xidmətini, öz qəsidələrini onlara cavab olaraq yazdıqlarını göstərmişdir. Bununla belə Nəsiminin adı göstərilən qəsidəsi öz dərin fəlsəfi, ictimai yüksək poetik məziyyətlərinə görə onların içərisində

əhəmiyyətli yer tutur. Nəsimi haqqında, onun fəlsəfi görüşləri haqqında istər Avropa alimləri, istərsə də türk, türkmən, özbək və Azərbaycan alimləri, söz ustaları söz yazmışlar, onun hurufilikdə, sufizimdə mütərəqqi cəhətləri əxz etdiyini göstərmişlər. Şair Allahın, bizin fikrimizcə isə müqəddəs ruhun insanda, təbiətdə mövcud olmasını göstərən dahi bir alimdir. Elə ona görə də əsərlərində, fəlsəfi qəsidəsi olan "Bəhlül-Əsrar" da göstərdiyi kimi, məhşər günü də, axirət günü də bu dünyada olur. Mürtəce qüvvələrin təzyiqinə baxmayaraq yaradıcılığında, məfkürəsini açıqlamaq baxımından, böyük əhəmiyyəti olan "Bəhrül-əsrar"ın əsrlərin sınağından çıxaraq bu günümüzə qədər çatan əlyazma nüsxələrinin mühafizəsi Azərbaycanın mütərəqqi ziyalılarının əməyinin nəticəsidir. Əsərin müasir məktəblərdə ədəbiyyat proqramlarına daxil edilməsinin böyük tərbiyəvi əhəmiyyəti olacağı şübhəsizdi.

Böyük sənətkar İmadəddin Nəsimi haqqında çoxlu şeir, poema və roman yazılmış, film çəkilmişdir. İmadəddin Nəsiminin altı əsirlik yubileyi ilə əlaqədar kitabxanada şair haqqında çəkilmiş "Nəsimi" kinosunun müzakirəsi keçirilə bilər. Tədbirə rəng qatmaq və kino ilə bağlı maraqlı məlumatlar vermək üçün Respublikamızın Xalq artisti Rasim Balayevi və digər kino iştirakçılarını dəvət etmək olar. (Onu qeyd edək ki, film aktyor Rasim Balayevin kinoda ilk işidir.) Kino haqqında qısa məlumata keçid alaq. Rejissor: Həsən Seyidbəyli, Ssenari müəllifi: İsa Hüseynov, Operator: Rasim İsmayılov, Rəssam: Məmməd Huseynov və Mais Ağabəyov, Bəstəkar: Tofiq Quliyev olmuşdur.

Rollarda iştirak etmişlər:Nəsimi-Rasim Balayev; Nəimi-İsmayıl Osmanlı; Fatma-Xalidə Quliyeva; Yusif-Kamal Xudaverdiyev; Dövlət bəy-Tofiq Mirzəyev; Şəms-Almaz

Əsgərova; Şirvanşah İbrahim-Şəmsəddin Rzayev; Şeyx Əzəm-Məmmədrza Şeyxzamanov; Teymurləng-Yusif Vəliyev; Miranşah-Muxtar Maniyev.

Kino dram janrında, Azərbaycan dilinə, Azərbaycanda; Naxçıvanın, Abşeronun, Atəşgah və Siyəzən və Şamaxının bəzi bölgələrində çəkilmişdir. 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalında tarixi mövzuda ən yaxşı filmə görə mükafatına layiq görülmüşdür. Ən yaxşı kişi rolunun ifasına görə aktyor Rasim Balayevə II mükafat verilmişdir.

Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər və eləcə də ədəbi-bədii gecə keçirilir. İ.Nəsiminin xatirəsinə həsr olunmuş ***"Səni bu hüsnü camal ilə görüb"*** adlı ədəbi-bədii gecəyə Azərbaycanın görkəmli ədibləri, sənət-söz adamları, oxucular, məktəblilər dəvət olunur. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqlarını ilk olaraq "İmadəddin Nəsimi haqqında veriliş" in slaytına baxmağa dəvət edirlər. Gecəni açıq elan etmək üçün aparıcılar səhnədə öz yerini alırlar.

**I aparıcı**: Dəyərli qonaqlar, Nəsimi sevərlər, şairə vurğun oxucular, bu gözəl şeirli, nəğməli, tədbirə xoş gəlmisiniz. Bu gün hamımız İmadəddin Nəsiminin ölümünün 600-cü ildönümünə və onun 47 baharlıq ömür yoluna işıq salmaq üçün şairin ocağına, istisində qızınmağa, Nəsimi zirvəsindən od götürməyə yığışmışıq. Çünki Azərbaycan torpağında Nəsimi zirvəsi var. Bu zirvədən günəş doğur. O günəş ki, qürub edər, ancaq heç vaxt batmaz.

Gəldi yarım nazilə, sordu, Nəsimi, necəsən?
Mərhaba, xoş gəldin, ey xırda dəhanım, mərhaba!

**II aparıcı:** Altı yüz ildir ki, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı Yazın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir. Altı yüz ildir ki, məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə öz sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirində, aşıqların sazında tərənnüm edilir.

**I aparıcı:** Onun şeirlərində istifadə etdiyi dərin təsəvvüfi düşüncəsi sonralar bir çox böyük mütəfəkkirə təsir göstərmişdir. Klassik şairimizin odlu poetik nəfəsindən hərarət saxlayan qaynaqlardan biri də XVI əsrdə Aşıq Çələbi tərəfindən tərtiblənmiş "Məşairüş-şüara" adı ilə tanınan təzkirədir.

**II aparıcı:** Həyatı və yaradıcıllığı əsl vətəndaş hünəri timsalı olan İmadəddin Nəsiminin qüdrətli səsi əsrləri adlayaraq bizə gəlib çatmışdır. Nəsimi Azərbaycan xalqının həqiqətən böyük oğludur, çünki öz ana dilində ilk dəfə yazıb-yaratmışdır və şairin hünəri heç vaxt unudulmayacaqdır. Nəsimi ana dilindən ustalıqla istifadə etmiş, anlaşılır tərzdə, bir sözlə, xalqın dilinə yaxın tərzdə yazmışdır.

O uzaq, o qədim lisana bir bax!
Büllur bulaq kimi süzülər, çağlar.
Əsər var yazılıb otuz il qabaq,
Otuz cür lüğətə ehtiyacı var...

*(Qabil Nəsimi poemasından)*

**I aparıcı:** Alovlu insanpərvər şair yaşadığı cəmiyyətdə səadət, ədalət, həqiqət görmədiyi üçün kədərlənir, onun şeirlərində xalqın taleyini dərindən duyan insanpərvər sənətkarın iztirab və kədərləri, üsyankar ruhu səslənir. Nəsimi cəmiyyətdəki zülümdən və özbaşınalıqdan şikayətlənir, zülmü, ədalətsizliyi soyğunçuluğu pisləyir. Doğruluğu, haq-ədalət və xeyirxahlığı

tərənnüm edir. Humanist şair insan ləyaqətini alçaldan, onun mənəvi azadlığını buxovlayan feodal dünyasına qarşı alovlu etiraz səsini qaldırdı.

Hərgiz zəmanə kimsəni xoşund qılmadı,
Hər fel nəmüvafiqu hər fel nasəvab-

**II aparıcı:** Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Yaxın Şərq ədəbiyyatına gətirdiyi humanist ideyaları davam və inkişaf etdirən böyük sənətkar insana, insan ləyaqətinə, qüdrətinə olan yüksək inamını tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı, həyatı gözəlliklərin əsl mənbəyi kimi vəsf etmişdir. Nəsimi sənəti bütövlükdə insan gözəlliyinə, insan qüdrətinə heyranlıqla dolu bir himn kimi səslənir. Ancaq bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil insanlara xasdır. Məhz buna görə şair kamil insanı "canımın canənəsi" adlandırır, ona səcdə etməyin vacib olduğunu göstərir.

**I aparıcı:** Nəsimi yaradıcılığından ilk dəfə əsaslı şəkildə bəhs edən ədəbiyyat tariximizin tədqiqi və nəşri sahəsində müstəsna xidmətlər göstərən Salman Mümtaz olmuşdur. Tədqiqatçı tərtib etdiyi "Seyid İmadəddin Nəsimi. Əsərləri" kitabını giriş məqaləsi ilə 1926-ci ildə çap etdirmişdir. Ulu öndər Heydər Əliyev Xalq şairi Qabilin "Nəsimi" poeması haqqında bu fikirləri söyləmişdir: "Qabil Nəsimi haqqında mənzum romanını çox böyük ustalıqla yazmışdır. Doğrudan da bu çox böyük iş idi və Qabil bu işin öhdəsindən layiqincə gəldi. Bu həqiqətən dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin işi deyil. Qabil bunun öhdəsindən gəldi".

**II aparıcı:** Yəqin ki, Qabili Nəsiminin bədii surətini yaratmağa sövq edən ilk amil-bu qeyri-adi tarixi hadisə olmuşdur. On illik yaradıcılıq axtarışının və gərgin əməyin, mütaliyə və tədqiqatın, Şamaxıdan Hələbə qədər səyahətin, şərqşünas alimlərdən, Nəsimi bilicilərindən öyrənməyin məhsulu olan bu dastanda, bəzi ricət və müəllif nitqi istisna edilərsə, Nəsimi danışır. Qabil hadisələri Nəsiminin dili ilə nəql edir. Xatırladaq ki, bu əsər 1976-cı ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb. Məktəblilərdən biri səhnəyə yaxınlaşaraq adı gedən poemadan bir parçanı səsləndirir.

Fəsillərin ən gözəli, əzizi,
İnsanların ən yaxşısı, təmizi
Bu yollarda yoldaş olub mənimlə,
Bu yollarda qardaş olub mənimlə.
Sağdışım-
İlk bahar-Fəsli-gülüstan,
Soldışım-
Safiyə başçısı Orxan...
Gedirəm, dalıram fikrə, xəyala,
Dilimdə, gözümdə Əli ül Əla.
Rumun ən qüdrətli söz sərkərdəsi-
Hürufi şair!
Fəzlullah atamın nəfəsi, səsi-
Hürufi  şair!
Bura nədir? Ürfan evi! Söz kaşanəsi.
Şeyx Sədrəddin Qünyəvinin kitabxanəsi.
O, həm mədrəsədir, həm də xanəgah.
Misirdə, müridə nişangah, pənah.
Bu xəznənin sahibidir Əli ül Əla.
Bu xidmətdə şair tapıb ömrünə məna.

Hər vərəqə, hər bir sətrə pasiban durub,
Ancaq, ancaq bir kitabın keşiyindəsə
Şair Əla etiqadla ürək yandırıb.
Hücrələrin havasını təmizləyir yaz,
Günəş yekrəng cilidləri boyayır əlvan.

**I aparıcı**: Qabilin dedikləri: "Hələbdə Nəsiminin adını daşıyan köhnə bir küçə var. Böyük söz ustadının məqbərəsi oradadır. Yerli sakinlər Nəsiminin öz vətəni, öz dili olduğunu bilirdilər. Onlar bilirdi ki, Nəsimi doğma xalqının oğludur. Bu xalq isə bizik.

Mənsur: "Ənəlhəq!" söylədi ,
"Mürtəddir!" – Elan etdilər.
Mənsur "mənəm həqq" söylədi,
Bağdadda edam etdilər.

**II aparıcı:** Böyük Azərbaycan şairi, filosofu və mütəfəkkiri İmadəddin Nəsiminin əbədi uyuduğu Hələb şəhərinin (Suriya) milli muzeyinə bu poeziya klassikinin heykəli hədiyyə verilmişdir. Şairin tunc heykəli respublikanının Əməkdar rəssamı, heykəltəraş Albert Mustafayevin iştirakı ilə xalq rəssamı Mikayıl Abdullayev tərəfindən yaradılmışdır. Şair əyləşmiş və dərin fikrə qərq olmuş vəziyyətdə təsvir edilmişdir. Onun şəxsiyyətinin qeyri-adiliyi və daxili ruh yüksəkliyi çox bariz şəkildə verilmişdir.

**I aparıcı:** İ.Nəsimi klassik Azərbaycan ədəbiyyatı tarixini tədqiq edən dünya şərqşünasları və türkoloqlarının daim diqqət mərkəzində olmuşdur. Nəsiminin əlyazma xəzinələri və kitabxanaların yaraşığı və fəxri olan bu əlyazma nüsxələri şairin ədəbii-bədii irsinin gözəl nümunələridir. Şairin aftoqrafları elm aləminə məlum deyildir. Onun əsərləri əsasən

başqaları tərəfindən köçürülərək zəmanəmizə qədər gəlib çıxmışdır.

**II aparıcı:** Nəsimi sözə dəyər verən şairdir. O, şeirlərində, xüsusi ilə rübailərində hikmətli sözlərdən məharətlə istifadə etmişdir. Həqiqətin carçısı olan sənətkar "Doğru söz acı olar" misalından yaradıcı şəkildə faydalanır:

Ol bilir həqqi ki, yalançı deyil.
Hər kim yalan söylər, ol naci deyil.
Həccə doğru varmayan Hacı deyil,
Doğru söz doğrulara acı deyil.

**I aparıcı:** Ümumiyyətlə, Nəsiminin hikmətli sözlərə olan münasibətini dürüst müəyyənləşdirmək, təhlil etmək xüsusi tədqiqat mövzusudur. Xalq yaradıcılığının zəngin xəzinəsindən sənətkarlıqla istifadə etmiş böyük şair Nəsiminin öz sözləri indi qədirşünas xalqımız tərəfindən sevilə-sevilə təkrar olunur, zərb məsəllərə çevrilir:

Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,
Gör bu miskin aşiqi, sərpa soyarlar ağrımaz.

**II aparıcı:** Hürufilikdən bəhs edərkən Nəsimidən danışmamaq olmaz. Hürufilər mübariz vətənpərvərlər idilər. XIV əsrdə "məğlubedilməz" Teymur orduları Azərbaycana basqın etdikləri zaman Naxçıvanda Əlincə (Ərincə) qalası qarşısında uzun müddət acizlik göstərib susmağa məcbur olmuşdur. Bunu bir başqa səbəblərlərlə bərabər əsasən hürufiliyin Naxçıvanda daha qüvvətli olması ilə də izah etmək olar. Nəimi öldükdən sonra onu Naxçıvan və Əlincə ətrafındakı hürufilərin müqəddəs mərkəzi olan Xaneqahda dəfn etmişlər. Nəiminin şagirdlərindən birisi onun haqqında yazdığı şeirində Nəimini Zərdüştə, "Cavidnaməni" "Avestaya" və Xaneqahı da atəşgədəyə bənzətmişdir.

**I aparıcı:** Dilrüba Nəqşicahanda bir Əlincə dağı var;
Zirvəsindən yan keçər şimşək, buludlar dağılar.
Dövrəsində tarimar olmuş sərasər yığılar
Zərbələrdən öylə bilmişlər qiyamətdir nədir,
Torpağımda yüksələn rəmzi mətanətdir, nədir?! ...

**II aparıcı:** Hələbdə Nəsiminin tərəfdarlarının çoxalması din xadimlərini təşvişə salır, onların fətvası ilə Nəsimi zindana salınır və 1417-ci ildə asılaraq dərisi soyulur. Deyilənlərə görə, şairin edamını təşkil edən din xadimi "Bu elə bir məlundur ki, hara qanından bir damla sıçrasa, oranı kəsmək gərəkdir" demiş. İşə bax ki, şairin qanından bir damla həmin din xadiminin barmağına düşmüş, barmağının kəsilməsini istəyənlərə "mən söz olaraq demişdim" söyləmişdir.

Al-qan içində inləyən, həyatın son anlarını yaşayan Nəsimi burada bədahətən "Ağrımaz" qəzəlini söyləmişdir.

**I aparıcı:** Nəsiminin adı mərdlik və yenilməzlik simvolu kimi yaşamaqdadır. Nəsiminin ölümü gözəl ölümdü. Deyirlər onu soymağa dabanından başlamışlar, lakin o idealından dönməmişdir. Onun haqqında çoxlu rəvayətlər də yaranıb. Rəvayətlərin birində söylənilir ki, ölüm ayağında belə dözüm və mətanəti qarşısında sarsılan ruhanilər istehza ilə ondan soruşurlar:

-Sən ki, haqsan, bəs niyə qanın axdıqca saralırsan?

Nəsimi qürurla cavab verir:

-Bəli, rəngim saralır. Mən əbədiyyət üfüqlərində doğmuş eşq günəşiyəm. Günəş qürub edəndə saralar.

**II aparıcı:** Nəsimini diri-diri soymaq, şaqqalamaq, onu sındırmaq olardı, lakin əymək olmazdı. Azərbaycan oğlunun bu ibrətli ölümü, xalqımızın, onun davam edib gələn nəsillərinin iradəliliyi, dönməzliyi rəmzi olmuşdur. Bu ölüm

sözün əsl mənasında poeziyaya çevrilmişdir. Şair öz ölümü ilə insanlığı heyran qoydu. Nəsimi könüllər fatehi idi. Şair ölümü ilə ölməzliyini təsdiq etmiş əbədi şəxsiyyətdir. Azərbaycanın əbədi şəxsiyyəti...

**I aparıcı:** Böyük şair-filosof İmadəddin Nəsimi dərin, sarsılmaz inam və işıqlı ideal sahibi olub. Sözün böyük mənasında heyrət doğuran cəhət budur ki, Nəsimi öz həqiqətini, öz "ənəlhəq" ini yalnız poeziyasının qüdrəti ilə deyil, şəxsi dönməzliyi, fədakarlığı ilə-əfsanələrə çevrilmiş mərdanə və amansız ölümüylə təbliğ və təsdiq etdi.

Bayrağa çevrildin, qanlı bayrağa,
Axıb üz-gözünü örtdükcə qanın.
Elə bil, boylanıb baxdın uzağa,
Uzaq sabahına Azərbaycanın!

**Xalq şairi Qabil**

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri. - Bakı : Altun kitab, 2005. - 316 s. - (Azərbaycan Klassik Poeziyası).

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2009. - 352 s. - (Azərbaycan Ədəbiyyatı). - Kitabda Qazi Bürhanəddinin, Nəsiminin, Həsənoğlunun tuyuq və rübailəri, müxtəlif mövzularda yazdığı qəzəlləri toplanmışdır.

Seçilmiş əsərləri [Elektron resurs] : poeziya. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM). - (Nizami layihəsi).

Qəzəllər. - Bakı : Lider nəşriyyatı, 2004. - 336 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

***Kitablarda***

Qəzəllər // Azərbaycan klassik ədəbiyyatından seçmələr. – Bakı : Şərq-Qərb, 2005. – S. 153- 180.

Qəzəllər // Türkxalqları şeiri antologiyası. – Bakı: Çaşıoğlu, 2008. – S. 83-88.

***Dövri mətbuatda***

Qəzəl // Yeni Azərbaycan. - 2010. - 6 mart. - № 42. - S. 11.

Qəzəllər // Azərbaycan. - 2006. - № 9. - S.3-5.

Ey müsəlmanlar, mədəd, ol yari-pünhan ayrılır... : qəzəl // Füyuzat. - 2011. - № 5. - S. 30.

Qulluğa bel bağladım, sultanı gözlər gözlərim : qəzəl // Füyuzat. - 2012. - № 2. - S. 29.

Gəl, ey dilbər, məni gör kim, necə xoş yanaram sənsiz : qəzəl // Füyuzat. - 2012. - № 4. - S. 35.

Sənsiz nə yesəm, qüssəvü-qəm, dərd ilə qandır // Füyuzat. - 2017. - № 4. - S. 63.

**Haqqında**

İmadəddin Nəsimi. - Bakı : Elm, 1973. – 272 s. – kiril qrafikası ilə.

İmadəddin Nəsimi // Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. – Bakı : Elm, 2009. – C.3. – S.206-251.

Qacar Ç. Böyük şair, hürufiliyin alimi və aşiqi : İmadəddin Nəsimi // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. – Bakı : Oka Ofset, 2012. – S.220-226.

Mümtaz S. Seyid İmadəddin Nəsimi : məqalə // Azərbaycan ədəbiyyatının qaynaqları. - Bakı : Avrasiya Press, 2006. - S. 153- 159.

Paşayev Q. Nəsimi haqqında araşdırmalar . - Bakı : Qarabağ, 2010. - 168 s.

Paşayev Q. Nəsimi haqqında araşdırmalar // Seçilmiş əsərləri : 7 cilddə. - Bakı : Təhsil, 2012. – C. 4. - S. 5-96. – Nəsimi 26 divanının İraq nüsxəsi və naməlum şeirləri ; Nəsiminin həyat və yaradıcılığına yeni baxış ; Axtarışlar ; Şeyx Nəsimi: tarixi həqiqətlər, həyəcanlı anlar ; İraq divanı və biz ; Nəsimi irsinin tədqiqi və nəşri tarixinə bir nəzər.

Rza R. Cahana sığmayan şairin qərib məzarı ; Böyük şair haqqında qeydlər : İmadəddin Nəsimi haqqında // Seçilmiş əsərləri. 5 cilddə. - Bakı : Öndər, 2005. – C.5.- S. 123-133.

*Dövri mətbuatda*

**Böyük Azərbaycan şairi** İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (15 noyabr 2018-ci il) // Xalq qəzeti. - 2018. - 16 noyabr. - № 258. - S. 2.

**Azərbaycan Respublikasında 2019-cu** ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (11 yanvar 2019-cu il) // Mədəniyyət. - 2019. - 16 yanvar. - № 4. - S. 2. ; Azərbaycan müəllimi. - 18 yanvar. - № 2. - S. 2.

**Abbaslı T**. "Cinayət" və cəza dahisi : İmadəddin Nəsimi haqqında // Mədəniyyət. - 2011. - 7 oktyabr. - № 74. - S. 13.

**Abbaslı T.** Bəşərin böyük arifi - zəmanəsinin batil "hərif"ləri içərisində aqil hürufi // Mədəniyyət. - 2012. - 12 oktyabr. - № 74. - S. 13.

**Akademik : 2019-cu** ilin "Nəsimi ili" elan edilməsi nəsimişünaslığın inkişafına böyük təkan verəcək : Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin ölkədə "Nəsimi ili" elan edilməsi çox əlamətdar və təqdirəlayiq hadisədir : [Akademik Gövhər Baxşəliyevanın Trendə açıqlaması] // Xalq qəzeti. - 2019. - 13 yanvar. - № 9. - S. 4.

**Ayişə.** Ya Nəsimi, ya haqq - 1 ; Ya Nəsimi, ya haqq - 2 ; Sidre və b. şeirlər // Ulduz. - 2014. - № 1. - S. 40-42.

**Azəri L.** Nəsimi ömrünün və ideallarının ekran təcəssümü : Bəşəri ideyalar aşılayan filmin yaranmasından 45 il ötür // Mədəniyyət. - 2018. - 25 aprel. - **№ 32**. - S. 10.

**Bağırov R.** Ey Nəsimi, cahanı tutdu sözün... : İmadəddin Nəsimiyə həsr olunmuş beynəlxalq elmi konfrans // İki sahil. - 2017. - 24 iyun. - № 112. - S. 23.

**Balayeva T.** Milli-mənəvi dəyərlərə verilən önəm : 2019-cu il "Nəsimi ili"dir. // Xalq qəzeti. - 2019. - 23 yanvar. - № 17. - S. 11.

**Bədəlova Ə.** "Məkansız oldu Nəsimi, məkanı yoxdur anın" // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2008. - № 2. - S. 13-18.

**Buzovnalı A.** Xəzinədən incilər : "Qırx qəzəl - Qırx şərh" kitabından // Ədəbiyyat qəzeti. - 2019. - 12 yanvar. - № 1. - S. 18-19.

**Cəfərov N.** Haq mənəm : Azərbaycan şairi, mütəfəkkir İmadəddin Nəsiminin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - № 62. - S. 2.

**Dünya poeziyası və** fəlsəfi fikrində öz abidəsini ucaltmış şair : UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600-cü ildönümü münasibətilə tədbir keçirilib // Mədəniyyət. - 2017. - 24 may. - № 39. - S. 5.

**Əbilov Ə.** Ədəbiyyatımızın mürşidi-kamili : Nəsimi yaradıcılığı haqqında // Azərbaycan. - 2011. - № 6. - S. 148-157.

**Əhmədalılar T.** İdrakın da, həlakın da "sarı sim"i... : haqq və həqiqət yolunda Tanrı libasından da edilmiş Nəsimi! // Mədəniyyət. - 2013. - 9 oktyabr. - № 72. - S. 13.

**Əlibəyli Ş.** Nəsimi və Füzuli səpkisində ortaq məqamlar : Fars divanları əsasında // Azərbaycan. - 2006. - № 3. - S.177-182.

**Əliyev Z.** Nəsimiyə polyak sevgisinin plastik ifadəsi : [heykəltəraş Qustav Zemlanın Azərbaycan şairi Nəsiminin portretini hazırlaması haqqında] // 525-ci qəzet. - 2018. - 6 yanvar. - № 2. - S. 12.

**Əliyeva G.** Klassik türkmən poeziyasında Nəsimi obrazı // Azərbaycan. - 2018. - № 3. - S. 169-177.

**Fəhmi İ.** Nəsimi festivalı : zamandan yüksəkdə // Ədəbiyyat qəzeti. - 2018. - 6 oktyabr. - № 37. - S. 2.

**Fikrətoğlu O.** Nəsimi soyulanda biz o susan kütlənin içində idik. Biz Nəsimini nə asırdıq, nə də qoruyurduq. Susurduq : [Əməkdar incəsənət xadimi, yazıçı, rejissor Orxan Fikrətoğlu ilə müsahibə / söhbətləşdi S.Amin] // Ədəbiyyat qəzeti. - 2017. - 11 mart. - № 9. - S. 8.

**Heydər Əliyev Mərkəzində** Nəsimi - şeir, sənət və mənəviyyat festivalı çərçivəsində sərgilər açılıb : Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib (28 sentyabr 2018-ci il) // Xalq qəzeti. - 2018. - 29 sentyabr. - № 218. - S. 6.

**Həbibbəyli İ.** Cahana sığmayan Azərbaycan şairi : 2019-cu il "Nəsimi ili"dir // Azərbaycan : qəzet. - 2019. - 16 yanvar. - № 11. - S. 1, 6.

**Həmzəoğlu K.** Prezident 2019-cu ili Azərbaycanda "Nəsimi İli" elan etdi : "Bu, ölkə prezidentinin, Azərbaycan dövlətinin sözə, yaradıcılığa, ədəbiyyata, Azərbaycan mədəniyyətinə verdiyi dəyərin növbəti göstəricisidir" // 525-ci qəzet. - 2019. - 12 yanvar. - № 7. - S. 3.

**İmadəddin Nəsimi (1369-1417)** // Savalan. - 2016. - 3-9 iyun. - № 31. - S. 2.

İmadəddin Nəsimi // Karvan. - 2013. - № 2. - S. 19 ; № 3. - S. 17 ; № 4. - S. 9.

**İmadəddin Nəsimi Azərbaycanın** dahi söz ustadıdır // Səs. - 2019. - 12 yanvar. - **№ 7**. - S. 11.

**İmamquliyev B.** Kvant fizikası, yaxud Nəsimini niyə soydular : Sirli dünyamız // Azərbaycan. - 2018. - 21 aprel. - № 89. - S. 7.

**Kamal R.** Nəsimi və rus futurizmi: "Mən" Haqqın adı // Ədəbiyyat qəzeti. - 2016. - 9 aprel. - № 13. - S. 5.

**"Kaspi" qəzeti İmadəddin** Nəsimiyə həsr edilmiş məqalə müsabiqəsi elan edir // Kaspi. - 2019. - 24 yanvar. - № 15. - S. 13.

**Kəngərli - Əliyeva G.** Şeirimizin quş dili // Azərbaycan. - 2017. - № 9. - S. 178-184.

**Qəlbləri sözün qüdrəti** ilə fəth edən şair : 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib // Mədəniyyət. - 2019. - 16 yanvar. - № 4. - S. 1, 4.

**Musayeva İ.** Ədəbiyyatşünaslığın klassik irs problemi: İmadəddin Nəsimi // Ədəbiyyat qəzeti. - 2016. - 30 yanvar. - № 4. - S. 26. ; 6 fevral. - № 5. - S. 25. ; 13 fevral. - № 6. - S. 18-19. ; 20 fevral. - № 7. - S.13.

**Nağısoylu M.** "Nəsimi ili"nə layiqli töhfələr verək : 2019-cu il "Nəsimi ili"dir // Azərbaycan. - 2019. - 19 yanvar. **- № 17.** - S. 5.

**Nəbiyev B.** Nəsimi kəlamının işığında // Ədəbiyyat qəzeti. - 2008. - 5 dekabr. - S. 1-3 ; 12 dekabr. - S. 1-3.

**Nəsimi - şeir,** sənət və mənəviyyat Festivalı keçiriləcək // Ədəbiyyat qəzeti. - 2018. - 8 sentyabr. - № 33. - S. 7.

**Nəsiminin "Hüseyni" təxəllüsü** ilə yazdığı şeirləri aşkar edilib : AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimov böyük Azərbaycan şairi İmadəddin Nəsimi divanının-lirik şeirlər toplusunun Ankaranın Milli Kitabxanasında saxlanan iki əlyazma nüsxəsinin sürətini əldə edib // Mövqe. - 2019. - 22 yanvar. - **№ 13**. - S. 2.

**"Nəsimi ili"nin elan** olunması humanizm ideyalarına çağırışdır // Mədəniyyət. - 2019. - 25 yanvar. - **№ 7**. - S. 3.

**Niftəli E.** İmadəddin Nəsimi UNESCO-da anıldı // Ədəbiyyat qəzeti. - 2017. - 27 may. - № 19. - S. 4.

**Paşayev Q.** Cahana sığmayan şairin həyatı haqqında düşüncələr // 525-ci qəzet. - 2018. - 1 dekabr. - № 213. - S. 18.

**Salim F.** Həllac Mənsur // Kaspi. - 2011. - 2 fevral. - № 19. - S. 11.

**Salim F.** Nəsimi şirnisi : İmadəddin Nəsimi yaradıcılığı haqqında // Kaspi. - 2012. - 7-9 yanvar. - № 223. - S. 24.

**Seyid İmadəddin Nəsimi** // Füyuzat. - 2015. - № 6. - S. 25.
**Sıxıyeva S.** Nəsiminin şəxsiyyəti : tarixi qaynaqlar işığında // Mədəniyyət.az. - 2016. - № 12. - S. 10-13.

**Simadan asimana: Nəsimi** dühası : Azərbaycanda ilk dəfə dahi şair-mütəfəkkirə həsr olunmuş şeir, incəsənət və mənəviyyat festivalı keçirilir // Mədəniyyət. - 2018. - 28 sentyabr. - № 71. - S. 2.

**Sultanova M.** Moskvada "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" keçirilib Mədəniyyət. - 2018. - 21 noyabr. - № 85. - S. 1, 3.

**Şıxıyeva S.** Sultan şairlərə örnək şəxsiyyət : Mənəviyyat xəzinəsi // Azərbaycan : qəzet. - 2019. - 27 yanvar. - **№ 21**. - S. 6.

**Ulusel R.** Azərbaycan və dünya klassikləri: İmadəddin Nəsimi və Nikolay Kuzanlı Ulusel // Azərbaycan. - 2009. - № 2. - S. 175- 184.

**Ulusel R.** Bir çağın dahiləri: İmadəddin Nəsimi və Nikolay Kuzanlı // Kaspi. - 2014. - 15 aprel. - № 62. - S. 15. ; 16 aprel. - № 63. - S. 15.

**Vəliyev Y.** "Nəsimi" // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 11. - S. 5-8.

**Nəsimi obrazı bədii ədəbiyyatda**

**Bayramlı M.** Nəsimi kimi : şeir // Ədəbiyyat qəzeti. - 2015. - 26 dekabr. - № 64. - S. 27.

**Hüseynov İ.** (Muğanna). Məhşər. - Bakı : Çaşıoğlu, 2009. - 224 s. - (Azərbaycan Ədəbiyyatı)

**Hüseynov İ**. (Muğanna). Məhşər [Elektron resurs] . - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM). - (Nizami layihəsi).

**Kürçaylı Ə.** Nəsimi : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 375-377.

**Novruz C.** Nəsimi : şeir // Seçilmiş əsərləri : şeirlər, poemalar. - Bakı : Lider nəşriyyatı, 2004. – S.68. - (Müasir Azərbaycan ədəbiyyatı).

**Qabil.** Nəsimi : poema. - Bakı : Şirvannəşr, 2002. - 500 s.

**Qabil.** Tövbə : "Nəsimi dastanı"ndan // Ömrün gecə qatarı : Diqqət, vətəndaş sərnişinlər! Ömrün gecə qatarına minik başlanır. - Bakı : Şirvannəşr, 2007. – S. 181-182.

**Qabil.** Nəsimiyə rüşvət // Ömrün gecə qatarı : Diqqət, vətəndaş sərnişinlər! Ömrün gecə qatarına minik başlanır. - Bakı : Şirvannəşr, 2007. – S. 183.

**Rza X.** (Ulutürk). Nəsimi : şeir // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Şərq-Qərb, 2005. – C.1. - S. 98-99.

**Rza X.** (Ulutürk). Başıaçıq dayanan kişi : Nəsiminin heykəlinin açılışında // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Şərq-Qərb, 2005. – C.2. - S. 113-115.

**Tofik R.** Nəsiminin dilindən : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 6 oktyabr. - № 37. - S. 3.

# Bəşərin böyük arifi – İmadəddin Nəsimi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 03
Çapa imzalanmışdır: 11.01.2019
Tirajı:100
Pulsuz